# "Mənim tanıdığım Füzuli" kitabı çapdan çıxdı

**Mərhum şairimiz Ələmdar Mahirin dahi şairimiz Məhəmməd Füzuliyə böyük məhəbbətlə həsr etdiyi "Mənim tanıdığım Füzuli" kitabı "Nurlan" nəşriyyatında çap olunmuşdur. Kitabın redaktoru Hacı Mustafa Mailoğlu, rəyçisi akademik Teymur Kərimlidir.**




Hacı Mustafa Mailoğlu kitaba yazdığı "Bir neçə söz"də füzulişünaslıq tarixinə qısa ekskursiya edərək, Füzuli əsərlərinin tədqiqinin hələ şairin sağlığından başladığını, füzulişünaslığın Azərbaycan ədəbiyyatşünaslığının əsas qollarından biri kimi XX əsrin əvvəllərindən inkişaf etməyə başladığını qeyd edir və yazır: "Azərbaycandain bəy Köçərli, Salman Mümtaz, Əliabbas Müznib kimi sovet hakimiyyətindən öncə və onun ilk illərində yaşamış alimlərlə yanaşı, sovet dövrü yaşayıb-yaratmış tədqiqatçılar Həmid Araslı, Mircəlal, Feyzulla qasımzadə, Mirzağa Quluzadə, Məmmədcəfər Cəfərov və bir çox başqaları füzulişünaslığımızın inkişafında çox böyük xidmətlər göstərmişlər". Sonra "Ön söz" müəllifi müasir dövrdə yaşayıb-yaradan füzulişünaslardan Nəsib Göyüşov, Əlyar Səfərli, Möhsün Nağısoylu, Sabir Əliyev, Hacı Mail, Mahirə Quliyeva, Gülşən Əliyeva və Aida Qasımovanın adını qeyd edir və bununla yanaşı ədəbi məclislərdə Füzuli qəzəllərinin şərh olunduğunu və bunun da füzulişünaslığın inkişafında böyük rolu olduğunu vurğulayır. Nardaran kəndinin Füzulini başa düşən hacı Şeyx Əli Tuti, Hacı Paşa Əsir kimi şairləri və İbrahim kişi, Ələmdar Mahirin atası Əbdürrəhim kişi, öz babası İsmail kişi kimi savadı olmayan, lakin Füzuli şeirini bilən insanları da xatırlayır. Ələmdar Mahirin belə ədəbi mühitdə və ədəbi məclislərdə yetişdiyini xüsusi vurğulayır və onun ərsəyə gətirdiyi bu kitabın ilk iş olduğunu, Ələmdar Mahirin gələcəkdə bu sahədə yeni-yeni nailiyyətlər əldə edəcəyini bildirir.

Ələmdar Mahir "Mənim tanıdığım Füzuli" adlı yazıda "Füzuli kimdir?" sualına cavab vermək üçün bir çox tədqiqatçıların əsərlərini vərəqləyir, onlardan sitatlar verir və bu qənaətə gəlir ki, Füzuli sənətini dərk etmək üçün şairin yaradıcılığındakı nəsi gözəlliklərə və məna çalarlarına diqqət yetirmək lazımdır: "Füzuli sənətinin zahiri estetikası" adlı yazıda bəlağət elmindən danışır, "Bəlağətin klassik poeziyada işlənən tərkib hissələri aşağıdakılardır: təşbih, istiarə, təzad, mübaliğə, bədii təyin, təlmih, səs, kinayə, məcaz, təkrir, cinas, lüğəz və s. Bu tərkiblərin də ayrı-ayrılıqda hər birinin öz tərkibi və növləri vardır" yazır, sonra bəzi tərkiblər haqqında "Füzuli şeirində məcazlar", "Bədii təyinlər (epitetlər)", "Təşbihlər", "İstiarələr", "Mübaliğələr", "Təlmihlər", "Müləmmə", "İştiqaq", "Səs", "Tərsi", ""Touzi", "Cinas", "Bədii mükalimə", "İstifham", "Lüğəz", "Bədii xitab" adlı yazılarda Füzuli şeirindən örnəklər verməklə məlumat verir.

"Füzuli sənətinin daxili aləmi və məna gözəllikləri"ndən bəhs edən müəllif dahi şairin əqidəsini qeyd edir və üsuliddinin tövhid, ədl, nübüvvət, imamət, miad maddələrini bir-bir açıqlayır və Füzuli şeirindən nümunələr verərək fikirlərini dolğunlaşdırır. Sonra füruiddinin maddələrini sadalayır və şairin münasibətini bildirən örnəklər verir.

"Füzulidə nəsihət" mövzusunu araşdıran müəllif bir sıra beytlərin şərhini verir. "Füzulidə təsəvvüf yaxud irfan" adlı yazıda arif və sufi sözlərinin mənasını araşdırır, f.e.d. Nəsib Göyüşovun fikrini sitat verərək, Füzulinin heç bir təriqətə mənsub olmadığını qeyd edir. Peyğəmbər (s) və Əhli-beyt (ə.m.) yolunun ən düzgün yol olduğunu vurğulayan tədqiqatçı şairin irfani şeirlərindən nümunələr verərək onun arifliyini sübuta yetirir.

Kitabın ən böyük hissəsi "Füzulidə eşq məfhumu və "Leyli və Məcnun" poeması"dır. Müəllif nədənsə bunu kiçik yazılara ayırmayıb, elə əsərdə əvvəldən sona eşqə aid beytlərin, hissələrin şərhini verib, fikirlərini söyləmişdir. Burada bir çox irfani mətləbləri açıqlayan tədqiqatçının çox mütaliə etdiyini anlayır, klassik şeiri və irfani istilahları bildiyinin şahidi oluruq. Füzuli şeirində eşq məfhumunu açıqlamağa çalışan tədqiqatçı "Eşq mövzusu geniş və əhatəli olduğuna görə, bu haqda çox kitablar yazılıb. Bir çox böyük alimlər bu mövzuda qiymətli fikirlər irəli sürüblər. Hər kəs bu mövzunun həqiqətini dərk etmək istəyirsə, Qərb alimlərinin fikirlərini öyrənməklə yanaşı, Şərq dünyasının filosoflarının eşq haqqında yazdıqları kitablara müraciət etsinlər. Başqasının sözü ilə özümüzə qiymət verməkdənsə, öz sözümüzlə özümüzə qiymət vermək daha yaxşı olardı. Çünki Füzuli kimi bir şairin eşqdə məqamını tanımaq üçün, hansısa bir Avropa şərqşünasının yox, Füzulinin əqidəsini daşıyan müsəlman alimlərin fikirlərinə əsaslanmaq doğrudur" yazır və Füzuli şeirini açmaq üçün bir neçə dəfə görkəmli Azərbaycan alimi Nəsirəddin Tusinin fikirlərinə müraciət edir. Burada hüsn, zat, saqi, badə, şərab, xumarlıq, sərməstlik, aşüftəlik və s. məfhumların izahını verən müəllif aşiqin halını açıqlayır və İlahi eşqin tərənnümünü bizə çatdırır. Hər şey böyük ALLAH üçündür. Həqiqi eşqə yalnız O layiqdir. "Son söz"də müəllif bu nəticəyə gəlir: Füzuli sənətini başa düşmək, ondan məna çıxarmaq üçün bəzi dəqiq elmlərlə yanaşı irfan, fəlsəfə, məntiq, bəyan və s. elmləri bilməklə də kifayətlənmək olmaz. Tədqiqatçıda bu elmlərlə bərabər güclü iman da olmalıdır ki, bu böyük şairin sənətini qiymətləndirərkən, şeytani fikirlərdən uzaqlaşıb, tədqiqatını düzgün yola istiqamətləndirə bilsin. Çünki Füzuli şeirlərinin bəzəyi və gücü müxtəlif elmlərlə yanaşı həm də imandır". Sonda tədqiqatçı illər keçdikcə dahi şairin sənətinin daha ətraflı araşdırılacağına inandığını vurğulayır və yazır: "Bu kitabdakı Füzuli isə, MƏNİM TANIDIĞIM FÜZULİdir".

Kitab maraqlıdır, dili sadədir, oxunaqlıdır. Müəllif kitabı yazmaqdan ötrü böyük səy göstərmiş, xeyli zəhmət çəkmişdir. Kitab Füzuli yaradıcılığı ilə məşğul olan tədqiqatçılar, doktorantlar, tələbələr üçün dəyərli vəsaitdir.

Allah rəhmət eləsin, ruhu şad olsun.

### "Deyildim mən sənə mail..." kitabı işıqüzü görüb

Hacı Amil Məlikovun "Deyildim mən sənə mail..." kitabı ped.e.d., professor Əjdər Ağayevin redaktorluğu ilə "Adiloğlu" nəşriyyatında çap olunmuşdur. Müəllifin əvvəldə belə qeydi vardır: "Mu kitabımı mərhum füzulişünas, son dərəcə istedadlı alim və gözəl insan, Azərbaycan ziyalılarının sevimlisi, şair dostum və qardaşım Hacı Mailin nurlu və parlaq xatirəsinə həsr edirəm".

"Giriş"də sovet dövrü füzulişünaslarının tədqiqatlarına tənqidi münasibətini bildirən müəllif Füzulidə nəyin öyrənilməli olduğunun düzgün seçilmədiyini, Füzulinin təhrif olunmuş şəkildə təqdim olunduğunu, əsərlərindəki hadisələrin maddilik müstəvisində təyin edildiyini, lakin Füzulidə fikrin maddi halı deyil, ruhi halının əsas öyrənilmə obyekti olduğunu, Füzulini tədqiq etmək üçün nəhəng elm sahələrini və metafizikanı bilməyin vacibliyini qeyd edərək "Füzuli əsərlərində hadisənin səthi - lüğəti izahatı yox, daxili - ezoterik halı diqqət mərkəzində olmalıdır. Füzulidə söz və ya əşya həm lüğəti, həm də ezoterik, yəni gizli, daxili, hisslərlə üzə çıxarıla bilməyən keyfiyyətlərə malikdir" yazır, Füzuli sözünün xüsusi çəkisinin çox ağır olduğunu diqqətə çatdırır. Əbu Əbdullah Şəmsəddin Məhəmməd ibn İzzəddin ibn Adili Yusif əl-Bərazini Təbrizidən və Mahmud Kaşğaridən sitat verən tədqiqatçı "Məhəmməd Füzuli də məhz belə şəxsiyyətlərdən olmuşdur" yazır və şairin qeyd olunan mənəvi-ruhi keyfiyyətlərə malik olduğunu vurğulayır. Müəllif uzun ilər Əli Fəhminin, Məmmədəli Əsgərovun, Hacı Mailin qiymətli söhbətlərinə qulaq asdığını, onlardan öyrəndiklərinin onu Füzuli nilə bağlı axtarışlara sövq etdiyini bildirir, bu kitabın xüsusi elmi-tədqiqat olmadığını də təvazökarlıqla qeyd edir və "Bu ktabım M.Füzuli irsi haqqında zaman-zaman formalaşmış, təfəkkür süzgəcindən keçirilmiş iddiaların ifadəsidir, bu kitab mənim Füzuli beytləri haqqında fikir və düşüncələrimin məcmusundan ibarətdir" yazır.

Müəllif bir çox müəlliflər kimi Füzuli sözündən danışıb, ürfani istilahların açımına keçmir, əksinə, əvvəlcə ürfani məqamın anlaçını verir, sonra onun Füzuli yaradıcılığında müraciət olunduğu beytləri örnək verərək şərh edir. Məsələn ilkin olaraq "təcrid" anlayışından bəhs edir, onun lüğəvi mənasini qeyd edir, sonra tənhalığa çəkilmək halından danışır, Füzuli poeziyasında təcridin özünə möhkəm yer tutduğunu bildirir, "təəllüq" anlayışını izah edir, şairin "Süluki-fəqr ətvarın məcazi-eşq halımdır" misrası ilə başlayan qəzəlindən üç beyt verərək, onları şərh edir, daha sonra şairin müxtəlif qəzəllərinə də müraciət edir, daha 23 beytinin şərhini verir.

II bölümdə "Məstlik" istilahından söz açarkən axtarışlarının ikinci mərhələsinin başlandığını bildirən və bu məqamla bağlı şairin 22 beytini şərh edən müəllif yazır: "Məstlik, artıq bütün zahiri məhdudiyyətlərdən, kəsrət aləminin xəyalı küsdürən, əl-ayağa dolaşan maneçiliklərdən, varlıq aləminin bütün fani və müvəqqəti ötəriliklərindən sürətlə üz çevirib mütləq saflıq və ülviyyət dünyasına doğru pənah aparmaq prosesidir. Vəhdət dəryasının dərinliklərində qərq olmağa can atmaq məqamıdır".

III bölümdə müəllif "Fəna" məqamına keçid alır, "Fəna məhz Həqiqət mərhələsində aşiqin sakin olması dövrüdür", "bu eşqin son mənzili deyil, daha yeni mənzilin başlanğıcı hesab edilə bilər" yazır və bunula bağlı şairin 23 beytinin şərhini verir.

IV bölümdə "Zövq" anlayışından söhbət açan, onun aşiqin eşqlə bağlı hər hansı bir hadisədən (cəfa, səfa, əzab, ağrı, acı və s.) aldığı ləzzət və ya feyz olduğunu bildirən müəllif şairin 14 beytinin şərhini diqqətə çatdırır.

V bölümdə "Ney"dən bəhs edilir və neyin aşiqin (və ya insanın) öz Əslinə, Məbuduna qayıtmasını, qovuşmasını ifadə etmək məqamında qərar tutduğu bildirilir və şairin 8 beytinin şərhi verilir.

Kitabda VI "Cəm və pərişanlıq"da şairin 11, VII "Küfr və iman"da 11, VIII "Xətt və xal"da 26, IX "Ağız"da 6, X "İt"də 7, XI "Qubar (narın toz, torpaq)"da 20, XII "Sərgərdanlıq (sərgəştəlik, avarəlik)"də 11, XIII "Çak (çaki-giriban"da 12, XIV "Qəflət (qafil, təğafül)"də 16, XV "Qeyr (yad, özgə)"də 15, XVI "Qəmzə"də 17, XVII "Məcnun və Fərhad"da 34, XVIII "Zahid və vaiz"də 13, XIX "Saqi"də 14, XX "Səba"da 9, XXI "Fəqr"də 9, XXII "Sirişk (göz yaşları, əşk)"də 17, XXIII "Şəm və pərvanə"də 11 qəzəlin şərhini verən müəllif bu terminlərin anlamını verməyə çalışmış, bəzi kitablara da müraciət etmişdir.

Bütün bu izahlardan sonra Hacı Amil bildirir ki, oxucunu yormamaq üçün qələmi bir kənara qoymaq istəyir. Əslində, biz də qeyd etdiyimiz başlıqlarda müəllifin dəyərli şərhlərindən danışmaq istərdik, amma yazının həcmini böyüdüb, çap problemi ilə üz-üzə qalmaq istəmirik.

Kitabda əvvəldən-axıra kimi Füzuli aşiqi kimi çıxış edən müəllif sonda İlahi eşqdən söz açır və Həzrəti-Əlinin Allaha olan eşqini nümunə göstərərək bəzi hədisləri diqqətə çatdırır.

Kitab Füzuli yaradıcılığı ilə məşğul olan tədqiqatçılar, tələbələr, habelə kütləvi Füzulisevərlər üçün maraqlı və dəyərli vəsaitdir.

***Sona XƏYAL***